Səs qəzeti.- 2023.- 8 iyun. S. 14.

# Ay Molla, gəl, gör, bizim dərdimiz nədir?..

***Mən də dara düşən kimi nə edim, üz tuturam Molla Nəsrəddinin o müqəddəs ruhuna. Vallah, məni qınamayın, bu ruhun köməyi qədər canlıların köməyini görməmişəm. Elə bu səbəbdən də yenə üz tutdum rəhmətliyə.***



**FELYETON**

Ay Molla, sən Allah, vaxt elə, qulaq as, bir yol göstər bizə. Vallah səndən başqa bu dərdi kimə dedimsə, çarəsi olmadı. Ay rəhmətlik, axı səsdən başımız çatlayır. Bəlkə də həkimə getsək, hamımıza "başınız xarab olub, gedin qalan ömrünüzü istədiyiniz kimi yaşayın",- deyəcək.

Ay Molla, hərdən fikirləşirəm ki, bu uzaydan gəlib gecəynən bizə nə isə etdilər, görəsən? Elə hey o deyir-bu deyir ki, axşam göydə tarelka gördüm, yerdə parıltı gördüm. Vallah, şübhələnirəm bəzən. Bizə nə etdisə, onlar etdi. Yoxsa ətdən, sümükdən ibarət bizləri bu səs çoxdan o dünyaya aparmış olmalıydı.

Ay qurban olum, camaatın hamısı qışqırır, xəbərin var? Hamı ucadan danışır, qulağını tıxıb öz-özünə danışır. Vallah, elə qorxulu görünürlər ki... Bir də görürsən ki, küçədə bir nəfər öz-özünə danışa-danışa sənə tərəf gəlir. Hiss edirsən ki, əlin-ayağın buzlayır. Gəlib yanından keçir, xeyli aralanandan sonra sənlə işi olmadığını görüb toxdayırsan.

Gənclərin universitetdən çıxma vaxtı küçədə bir hay-qışqırıq başlayır ki.... Bir-biriləri ilə zarafatlaşa-zarafatlaşa, ucadan danışa-danışa gedirlər. Hələ metroda ey, elə ucadan danışırlar ki, dönüb baxırsan, baxanda da sənə elə bir göz süzdürürlər ki, vallah, qorxursan. Deyirsən bu yaşımda bunlar məni döyəcək deyəsən...

Metroda-qatarda bir də eşidirsən ki, kiməsə zəng gəldi, başladı çığıra-çığıra danışmağa. Onun əvəzindən ha utan, nə olsun. O, öz işindədir. Heç vecinə də deyil ki, axı bu qədər adamın qulağı məndədir...

Ay Molla, dərd bir olar, iki olar, deyərsən, hə. Axı onlarladır, hansından danışım ki, ürəyim soyusun. A kişi, xoşbəxt adammışsan ey, dövründə maşın-filan yox idi. Minirdin uzunqulağa, düşürdün yola, başın sakit, könlün dinc. Gəl də, nə olar, gəl, günümüzə bax. Gör, nələr çəkirik?

A kişi, bu Bakı şəhərini sən yaxşı tanıyırsan da, ta burda maşın əlindən tərpənmək mümkün deyil. İlahi, kimin əlinə beş qəpik düşübsə, verib maşına, özü də girib içinə, ta çıxmaq bilmir. Axşama kimi o küçə sənin, bu küçə mənim. Siqnallayırlar, elə bir dəlixanadır bura. Siqnalı qoyum bir kənara ey. Maşınlardan çıxan musiqi səsi qapılarımızı Xəzərdən gələn fırtınalı külək kimi açıb soxulur evlərimizə, otaqlarımıza. Deyir, dur ayağa, sən hara, istirahət hara?

Allah köməyimiz olsun, ay Molla, yaman xəstəyik. Sən Allah, vaxtın olanda bizə bir kitab aç. Gör vəziyyətimiz necə olacaq? A kişi, deyirəm sənə ki, minlərlə maşın var bu şəhərdə, deməli, minlərlə də xəstə var. Bax halımıza. Desən ki, bunların mərəzi nədir? Budur ki, hamısının başının içinə nə isə olub, ya da qulaqlarına. Maşında musiqiyə bu qədər səs verərlər?

Vallah, yazıqlar, xəstədirlər. Yoxsa bu səs kənardakıların başını bu qədər pozanda, gör onlara nə edər. Yəqin bunları o uzaydan gələnlər dəyişdirib özləri kimi dəmirə çevirdilər. Ki, bunlara səs təsir etmir. Gup-gup, axı nə qədər gup-gup?..

And olsun Allaha, Molla, gup-gup səsi beyninə təmas edir, qayıdır, mahnıların səsi qarışır bir-birinə, deyirsən bəs cəhənnəmin qır qazanında pak-pak qaynayırsan.

Elə vallah, cəhənnəmliyik hamımız. Ətəyi qaldırıb dizimizdən iki qarış, köynəyi də göbəyimizdən bir qarış yuxarıya qaldırıb qiyanda, sinəmizi açanda, Allahın verdiyi əzaları bəyənməyib yeniləyəndə, saçlarımızı gör qurşağı rənglərinə boyayanda, sosial şəbəkələrdə biabırçılıqla məşğul olanda, Allah da bizə bax belə mərəz endirər göydən.

Günahkar özümüzük. Amma yenə də Allah köməyimiz olsun, Hamımızın övladı var. Övlad yazıq da nə etsin, gözünü açıb bizi görür, arxamıza üç təpik də artıq vurur. Deyirik görən bu niyə belə oldu? Ta düşünmürük ki, kül başımıza, bizim mərəzimiz buna da keçdi.

Hə, Molla, gör bizə nə edə bilərsən. Yəni görəsən bu qışqırmamaq üçün bir dava varmı, yazığıq, həm də çox yazıq...

***Mətanət Məmmədova***